

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 iyul 2021-ci il №58 (2566) https://mod.gov.az Qiyməti 30 qəpik

# “Qalib ordunun əsgəri olmaqdan qürur duyuruq”



*Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğu işlərini dövlət səviyyəsində prioritet elan etməsi ilə Azərbaycan Ordusu inkişaf etdi. Bu gün ordumuz daha da güclənməkdə və günümüzün tələblərinə uyğun təkmilləşməkdədir. Ötən il sentyabrın 27-də başlayıb 44 gün davam edən və cəsur Azərbaycan əsgərinin zəfəri ilə başa çatan Vətən müharibəsi Azərbaycan Ordusunun gücünü bütün dünyaya bir daha nümayiş etdirdi. Bu qələbə sübut etdi ki, Azərbaycan əsgərinin qələbə əzminə, tarixinə və xalqına sədaqətinə heç bir kənar qüvvə təsir edə bilməz.*

Böyük Qələbə qazanan Azərbaycan Ordusunun müasir standartlara uyğun qurulması və daha da müasirləşdirilməsi yönündə görülən işlər uğurla davam etdirilir. Müasir silahların arsenalımıza daxil edilməsi, həmçinin silahların modernləşdirilməsi prosesi, dünyanın aparıcı ordularına malik ölkələr ilə qarşılıqlı hərbi əməkdaşlığın gücləndirilməsi və digər hərbi fəaliyyətlər davamlı şəkildə həyata keçirilir. Fəaliyyətlər nəticəsində rəşadətli ordumuzun döyüşaparma, özünümüdafiə qabiliyyəti daha da möhkəmləndirilir. Ali Baş Komandanın tapşırığına və Müdafiə nazirinin təsdiq etdiyi müvafiq döyüş hazırlığı planına uyğun olaraq ordumuzda müxtəlif miqyaslı təlimlər təşkil olunur ki, nəticədə təlim toplanışlarında qoşun və birləşmələrin gücü və hazırlığı sınaqdan keçirilir.

"N" hərbi hissəsində mühəndis-istehkam bölməsinin dərs prosesini izlədik. Şəxsi heyətin qarşıya qoyulan tapşırıqları, nəzərdə tutulmuş normativləri vaxtlı-vaxtında dəqiqliklə icra etməsi bölmənin hazırlıq səviyyəsindən xəbər verirdi. Dərs başa çatdıqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Şahin Quliyevlə həmsöhbət olduq. "Hər bir qoşun növünün döyüşdə özünəməxsus rolu var. Qoşun növləri təyinatına görə bir-birindən fərqlənsə də, əməliyyat zamanı, döyüşdə də, kiçik döyüş mühiti olan təlimdə də qarşılıqlı fəaliyyət quraraq, bir-birini tamamlayır. Vətən müharibəsində Azərbaycan Ordusu düşməni istənilən göstəricidə qabaqladığını bir daha nümayiş etdirdi. Hər kəs müqəddəs amala çatmaq - torpaqlarımızı işğaldan azad etmək, düşməni itkiyə məruz qoymaq, texnikalarını sıradan çıxartmaq üçün dəmir yumruq kimi birləşdi. Dəmir yumruqla düşmənin başını əzdik, ermənilərə uzun müddət unutmayacağı dərs verdik. Müzəffər Ali Baş Komandanın və xalqımızın yenilməz ordusu olaraq Böyük Qələbəni təmin etdik. Azərbaycan əsgəri bu tarixi yazdı. Şəhidlərimizin, qazilərimizin hər biri başımızın tacıdır, qəhrəmanlıq tariximizə hər biri öz adını ömürlük həkk etdirib. Gələcək nəsil onların qəhrəmanlıq yolunu özlərinə örnək, nümunə biləcək. Hamı xalqımızın qəhrəman xalq olduğuna bir daha əmin oldu", - deyə Şahin sözünə davam etdi.

(Ardı 3-cü səhifədə)



Şəhid pilot polkovnik-leytenant Rəşad Atakişiyevin anım mərasimi keçirildi

2-ci səhifədə



Şəki şəhərində "Əbədiyyət zirvəsini fəth edənlər" adlı vətənpərvərlik tədbiri keçirilib

4-cü səhifədə



Şəhid ata, şəhid oğul və 27 yaşdan sonra başlayan ömür

5-ci səhifədə



Azərbaycanın hərbi səhiyyəsi müasir tələblərə tam cavab verir

6-cı səhifədə

## Azərbaycanın Müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akara və Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerə başsağlığı ünvanlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, başsağlığında deyilir: "Fərat Qalxanı" antiterror əməliyyatının aparıldığı bölgədə qardaş Türkiyə Silahlı Qüvvələrinə qarşı edilmiş xain terror hücumu nəticəsində şanlı türk ordusunun hərbi qulluqçularının həlak olması və yaralanması xəbəri məni dərindən kədərləndirdi.

Həlak olanlara uca Allahdan rəhmət diləyir, onların ailələrinə dərin hüznlə başsağlığı verir və səbir diləyirik. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

Allah rəhmət eləsin".

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**25 iyul 2021 17:30**

İyulun 25-də saat 15:30 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca kəndi yaxınlığında yerləşən mövqelərdən Kəlbəcər rayonunun Zəylik kəndi istiqamətindəki Azərbaycan Ordusunun mövqelərini snayper tüfəngi və avtomatlardan fasilələrlə atəşə tutub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Qarşı tərəf cavab atəşi ilə susdurulub.

**26 iyul 2021 04:55**

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu sahəsində növbəti dəfə təxribat törədib.

İyulun 26-sı saat 03:00 radələrindən başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonu ərazisindəki müxtəlif istiqamətlərdə yerləşən döyüş mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisindəki mövqelərini atıcı silahlar və qumbaraatanlardan intensiv atəşə tutub.

Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülür.

# Naxçıvan Qarnizonu Qoşunlarında buraxılış mərasimi keçirilib




*Naxçıvan Qarnizonu Qoşunlarında təşkil olunan növbəti kursların başa çatması münasibətilə buraxılış mərasimi keçirilib. Qadın hərbi qulluqçuların da cəlb edildiyi kursları uğurla bitirənlər müxtəlif hərbi vəzifələrə təyin olunublar.*

Mərasimdə şəhidlərimizin əziz xatirəsi yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Polkovnik Mübariz Rzayev kurslar zamanı hər bir kursantın müasir hərb elminə aid yeni biliklərə yiyələndiyini və praktiki vərdişlərinin təkmilləşdirildiyini qeyd edib.

Məzunlar adından çıxış edən Şəhruz Məmmədov kursların əhəmiyyətindən danışıb, keçirilən məşğələlərdə qazandıqları bilik və bacarıqları xidmət yerlərində uğurla tətbiq edəcəklərini bildirib.

Polkovnik Mehman Gülməmmədov Naxçıvan Qarnizonunun rəisi general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıraraq bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsi nəticəsində ordumuz inkişaf və tərəqqisinin yeni mərhələsinə qədəm qoyaraq regionda ən güclü orduya və xalqın güvənc yerinə çevrilib. Son dövrlərdə qazandığımız uğurlar və 44 gün davam edən Vətən müharibəsində müzəffər ordumuzun qələbəsi, torpaqlarımızın işğaldan azad edilməsi bu fikri bir daha təsdiqləyir. Bu uğurların əldə olunmasında keçirilən ixtisas hazırlığı kurslarının da mühüm əhəmiyyəti var. Kurslarda iştirak edən hərbi qulluqçular torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə tapşırıqları peşəkarcasına yerinə yetiriblər.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Xatirə lövhələrinə buraxılış emblemləri vurulub və tribuna önündən təntənəli keçid olub. Sonda xatirə şəkli çəkdirilib.

# Şəhid pilot polkovnik-leytenant Rəşad Atakişiyevin anım mərasimi keçirildi





*Azərbaycan Hərb Tarixi Muzeyində şəhid pilot polkovnik-leytenant Rəşad Atakişiyevin anım tədbiri keçirildi. Mərasimdə Müdafiə Nazirliyinin hərbi qulluqçuları, respublikanın mədəniyyət və incəsənət nümayəndələri, o cümlədən şəhidin xidmət yoldaşları, ailə üzvləri, kütləvi informasiya vasitələrinin əməkdaşları və digər qonaqlar iştirak edirdilər.*

Əvvəlcə mərasimdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri açıq elan edərək bildirdi ki, bu gün hərbi təyyarəçi polkovnik-leytenant Rəşad Atakişiyevin xatirəsini yad etmək üçün toplaşmışıq. "İki il bundan öncə gecə təlimləri zamanı Rəşadın idarə etdiyi MİQ-29 döyüş təyyarəsinin qəzaya uğraması nəticəsində pilotumuz həlak oldu. Cəsur təyyarəçimizin həlak olması xəbəri o zaman Vətənini sevən hər bir Azərbaycan vətəndaşının qəlbini sızlatdı."

Muzeyin rəisi onu da vurğuladı ki, polkovnik-leytenant Rəşad Atakişiyev Azərbaycan Ordusunda xidmət etdiyi müddət ərzində peşəkar, nümunəvi, vətənpərvər zabit kimi tanınıb və xidmətləri həmişə yüksək qiymətləndirilib. Onun həyatı və xidmət yolu təkcə hərbçilər üçün deyil, həm də Azərbaycan gəncliyi üçün örnək və nümunədir.

Şəhidin həyat yoldaşı Könül Atakişiyeva da şəhidlə bağlı xatirələrini tədbir iştirakçıları ilə paylaşdı. "Rəşad fəxr ediləsi bir insan idi. Onun peşəkarlığı, sənətinə olan sevgisi Vətəninə olan sonsuz bağlılığından irəli gəlirdi. Rəşad çox vətənpərvər, milli-mənəvi dəyərlərimizə sadiq bir zabit idi".

Professor Qabil Hüseynli bildirdi ki, Rəşad Atakişiyev kimi vətənpərvər, qayğıkeş insanın bu həyatı tərk etməsi onun üçün ağır itkidir. "Rəşad mənim üçün ideal hərbçi obrazına uyğun olan bir şəxs idi. O bunu öz savadı, nizam-intizamı və tərbiyəsi ilə göstərərdi".

Professor Q.Hüseynli çıxışının sonunda Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə ailəsinə göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlığını bildirdi.

Anım mərasimində Rəşad Atakişiyevin xidmət yoldaşları - polkovnik-leytenant Vüsal Əliyev, mayor Hüseyn Babaşov, mayor Mahir Babayev onunla bağlı xatirələrindən söhbət açdılar.

Mərasim polkovnik-leytenant Rəşad Atakişiyevin xatirəsinə həsr olunmuş "Sonuncu uçuş" adlı sənədli filmin nümayişi ilə davam etdi. Mərasimdə xalq artisti Fidan Hacıyevanın ifasında Rəşad Atakişiyevin xatirəsinə həsr olunmuş "Yolun düşsə, bu dünyaya bir də gəl" mahnısı səsləndi. Qeyd edildi ki, mahnının sözləri və musiqisi bəstəkar Aytən Oqtayqızına məxsusdur.

Şəhid pilota həsr olunmuş mərasim bədii hissənin təqdimatı və şəhidlə bağlı təşkil olunan sərginin nümayişi ilə sona çatdı.

**Elvin VƏTƏNDUST**
**kursant**

# “Qalib ordunun əsgəri olmaqdan qürur duyuruq”

(Əvvəli 1-ci səhifədə)

- Mühəndis-istehkam qoşunu olaraq Horadizdən başlayan döyüş fəaliyyətimiz Hadruta qədər davam etdi. Mürəkkəb əməliyyat şəraitində müxtəlif təyinatlı minaların zərərsizləşdirilməsini, keçidlərin açılmasını uğurla icra etdik. Təyinatımız üzrə qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışdıq və bunu bacardıq. Mühəndis təminatının yerinə yetirilməsi insandan yüksək nəzəri və praktiki bilikdən savayı, möhkəm iradə və dözüm də tələb edir. Belə ki, ərazinin relyefi, iqlimi və zaman anlayışı nəzərə alınmaqla, hərbi qulluqçularımızın hazırlığını yüksək səviyyədə təşkil etmək məqsədilə mühəndis şəhərciyində təşkil olunan dərslərdə şəxsi heyətin istənilən şəraitə uyğunlaşması, qarşıya qoyulan tapşırığın öhdəsindən peşəkarlıqla gəlməsi üçün bilik və bacarıqları sınaqdan keçirilir. Bu məqamda qərar qəbul etmək, vəziyyəti düzgün qiymətləndirmək əsas şərtlərdən biridir. Komandirlərimizin rəhbərliyi altında şərti düşmənin mina sahəsində keçidlərin açılması, şərti düşmənin hərəkətinin çətinləşdirilməsi, qarşı tərəfi itkiyə məruz qoymaq və digər fəaliyyətlər istehkamçılarımızın qarşısında duran əsas vəzifələrdən hesab olunur.

Azərbaycan Texniki Universitetini bitirən əsgər Yasin Əmirov təcrübəli komandirlərinin keçdiyi məşğələlər sayəsində hərbi bilik və bacarıqlarını daha da artırdıqlarından danışdı. "Hərb sənətinin özünəməxsus çətinliyinin olması hər kəsə bəllidir. Lakin mühəndis xidməti



insandan daha çox səbir, polad iradə, yüksək nəzəri və praktiki biliklər tələb edir ki, bu da işin məsuliyyətindən xəbər verir. Çünki insan amili təlimdə, döyüşdə və əməliyyatlarda ən vacib amildir. Vaxtında aşkar edərək aradan qaldırdığın manevə onlarla, bəlkə də yüzlərlə silahdaşının sağlamlığını təmin edir. Təcrübəli komandirlərimizin keçdiyi çöl məşğələlərində və sinif dərslərində nəzəri və praktiki biliklərimizi təkmilləşdiririk. Dərsin mövzusuna əsasən qarşıya qoyulan tapşırıqlar müxtəlif olur. Mühəndis qoşunları iqlim və relyefdən, vaxtından asılı olmayaraq istənilən şəraitə hazır olmalıdır. Bunun üçün də təlim mərkəzində təşkil olunan praktiki dərslərdə müxtəlif təyinatlı şərti mina hədəflərinin aşkar edilməsi və zərərsizləşdirilməsi ssenarilərini məşq edirik. Proqrama uyğun olaraq ərazinin kəşfi aparıldıqdan sonra, təchizatımızda olan müasir mühəndis-istehkam cihazları ilə basdırılmış tank və piyada əleyhinə minalar tapılır, partlayış üsulu ilə məhv edilir. Keçirilən müxtəlif miqyaslı təlimlərdə də bölməmiz böyük nailiyyətlər əldə etmək üçün öz üzərində daim çalışır ki, bu da döyüş qabiliyyətini durmadan artırır".

Əsgər Hafiz Nəsirov qazanılan Böyük Qələbədən danışdı, Azərbaycan Ordusunun əsgəri olmaqdan qürur duyduğunu bildirdi. "Vətənin keşiyində dayanmaq mənə də qismət olub. Bölmədə hər birimiz fəxr edirik ki, qalib ordunun əsgəriyik. Torpaqlarımız işğaldan azad olunub. Biz işğaldan azad olunan torpaqlarımızda mühəndis təminatını təşkil edərək Vətən qarşısında övladlıq borcumuzu yerinə yetiririk. Torpaqlarımızda mənfur düşmən müxtəlif cür minalar basdırıb ki, bu da düşmənin nə qədər vəhşi xislətli və antihumanist olduğunun təsdiqidir. Arsenalımızda olan müasir avadanlıqlar sayəsində işimiz yüngülləşib. Hər bir heyət nəfəri üzərinə düşən vəzifənin öhdəsindən asanlıqla gəlməyi bacarır. Ərazidə hərəkətin təhlükəsizliyinin təmin edilməsi, minaların və partlamamış mərmilərin zərərsizləşdirilməsi üçün hər gün çalışırıq.

Digər əsgərlər Əli Qasımov, Şahlar Vəliyev, Sərxan Hüseynov da əsgər yoldaşları ilə həmfikir olduqlarını bildirərək əlavə etdilər ki, hərbi intizam, hərbi bilik və hərbi vətənpərvərlik döyüşdə qələbəni şərtləndirən amillərdəndir. Şanlı ordumuzun yazdığı tarixi salnamə, xalqımıza bəxş etdiyi Böyük Qələbə məhz həmin şərtlər əsasında təmin olundu.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

---

## Ordenli igidlərimiz

# “Əsil mənada vətəndaş olmaq, həqiqi vətənpərvər olmaq - məslək və əqidə sahibi olmaq deməkdir”



*Qürur, sevinc, inam... Bu hisslər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları nəticəsində Vətən müharibəsində qazandığı Zəfərin formalaşdırdığı hisslərdir. Tarixi Qələbə və düşmənin məcburi şəkildə imzaladığı kapitulyasiya aktı uşaqdan böyüyədək hamıda böyük ruh yüksəkliyi yaratdı, gələcək nəsillər üçün münaqişəsiz bir mühit bəxş etməyə imkan verdi.*

Mənəvi şüurun formalaşmasında milli dəyərlər böyük rola malikdir. Təsadüfi deyildir ki, milli dəyərlər ali hisslər, insanın fəaliyyətini stimullaşdıran amillər kimi qiymətləndirilir. Milli-mənəvi dəyərlər vətənpərvərlik müstəvisində çulğalaşaraq, insanın yaşam amalına çevrilən-də əsil vətəndaş formalaşır. Xalq şairi Səməd Vurğun "əsil mənada vətəndaş olmaq, həqiqi vətənpərvər olmaq - məslək və əqidə sahibi olmaq deməkdir", - deyirdi.

Hər bir kəsin tarixi qiyməti onun Vətənə, millətə xidməti ilə, əsil insanlıq ləyaqəti isə vətənpərvərlik hissi ilə ölçülür. Daim Vətəninə, dövlətinə, xalqına xidməti ilə seçilən, İkinci Qarabağ müharibəsinin iştirakçısı, ölkə başçısının müvafiq sərəncamı ilə "Qarabağ" ordeninə layiq görülən hərbi qulluqçu polkovnik-leytenant Şamxal Səlimova "N" hərbi hissəsində tanış olduq.

"Fəxr edirəm ki, Azərbaycan xalqının oğluyam və onun ordusunda xidmət edərək öz vətəndaşlıq borcumu yerinə yetirirəm", - deyə zabit Şamxal Səlimov söhbətə başladı. - Bu gün ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində müasir silahlarla təmin olunan güclü ordumuz var. Bu ordunun sayəsində tarixi Zəfər qazandıq, atababalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan gözəl yurdumuzu, onun mədəniyyət xəzinələrini, dilimizi, mənəviyyatımızı qoruduq və gələcək nəsillərə azad təqdim etmək üçün onu müdafiə etdik. Torpaqlar azad olunduqca, bir anlıq keçmişə qayıdır, gözlərimin önündə müstəqil Vətənin şən və firavan günləri canlanırdı. İçimdən qəribə hisslər keçirdi. Düşünürdüm ki, bu yolda ölməyə dəyər. Döyüşlər zamanı Azərbaycan Ordusunun bütün şəxsi heyəti Vətəni naminə canını qurban verməyə hazır idi. Hər kəs eyni düşünürdü: Vətən oğulları çiyinlərində Vətən olur, yolunda ölməyə oğulları olmayan Vətən kimə gərəkdir? Bu gün Azərbaycan hərbçisinin nəyə qadir olduğunu, torpağı naminə necə şərəflə döyüşdüyünü bütün dünya gördü. Dünya şahidi oldu ki, əsgərlərimiz, gizirlərimiz, zabitlərimiz və generallarımız Vətən uğrunda, birliyimiz və bərabərliyimiz uğrunda, Azərbaycan dövlətinin əbədi yaşaması uğrunda, gələcək nəsillər uğrunda gözlərini belə qırpmadan şəhidlik mərtəbəsinə yüksəlməyə hazırdırlar.

Zabit Şamxal Səlimov onu da qeyd etdi ki, Vətən müharibəsində qazanılan böyük Zəfər məhz Azərbaycan naminə, Azərbaycanın bütövlüyü uğrunda aparılan müharibənin parlaq hərbi-siyasi yekunu, möhtəşəm nəticəsidir. "Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan Respublikasının müdafiə qüdrətinin artırılması istiqamətində ardıcıl olaraq həyata keçirdiyi davamlı və məqsədyönlü siyasət böyük Qələbəyə aparan yolun ən mühüm hadisələrindəndir. Ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar: şəxsi heyət arasında azərbaycançılıq, hərbi vətənpərvərlik tərbiyəsinin qüvvətləndirilməsi, ordumuzun ən müasir hərbi texnika ilə silahlandırılması, yüksək ixtisaslı, peşəkar zabit korpusunun formalaşdırılması Azərbaycana regionda ən güclü orduya sahib olmağa və tarixi qələbəni əldə etməyə imkan verdi".

Zabit Şamxal Səlimov Vətən müharibəsində əldə edilən Qələbədə Azərbaycan Ordusunun artilleriya bölmələrinin də pay sahibi olduğunu qeyd etdi. "Vətən müharibəsində artilleriya qoşunları tərəfindən düşmənin yüzlərlə artilleriya qüvvəsi, döyüş texnikası, sursatı və canlı qüvvəsi məhv edildi. Torpaqlarımızın işğaldan azad olunmasına və qələbəyə aparan, təhlükəli, keçilməsi xüsusi peşəkarlıq tələb edən dağ-meşə yolundan müvəffəqiyyətlə keçən özüyeriyən və reaktiv qurğular bölmələrimizin atəş dəstəyini təmin etdi. Ən müasir tələblərə cavab verən raket sistemlərinin dəqiq atışları ilə düşmənin əməliyyat planları pozuldu və onlar məğlub oldular".

Zabit sonda "Qarabağ" ordeni ilə təltif olunduğuna görə dövlət başçısına təşəkkürünü də bildirdi: "Şərəfli tarixi olan Azərbaycan Ordusunun zabiti olduğuma görə qürur duyuram. Möhtərəm Ali Baş Komandanımıza göstərilən diqqət və qayğıya görə minnətdarlığımı bildirirəm. Bundan sonra da hər birimiz Vətənimizin şərəfi və namusu yolunda xidmət etməyə hazır olan müsəlləh əsgərik".

**Mayor**
**Məhəmməd ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Şəki şəhərində “Əbədiyyət zirvəsini fəth edənlər” adlı vətənpərvərlik tədbiri keçirilib

*Heydər Əliyev Mərkəzinə toplaşan Müdafiə Nazirliyinin rəsmiləri, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və ictimaiyyət nümayəndələri əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyünün bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.*



Din xadimi Hacı Kamran dünya müsəlmanlarının müqəddəs Qurban bayramının bəşəri əhəmiyyətindən, bu bayramın respublikamızda da yüksək səviyyədə qeyd olunmaqla Allaha sevgi, onun qüdrətinə inam və iman, insanlar arasında birlik, həmrəylik, xeyirxahlıq aşılamasından danışıb. Şəhidlərin ruhuna dualar oxunub, qazilərə şəfa, ölkəmizin müdafiəsində bu gün də mərdliklə dayanan igid əsgərlərimizə xidmətlərində müvəffəqiyyətlər, xalqımıza daha firavan həyat, sülh, əmin-amanlıq arzulanıb.



Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Müdafiə Nazirliyinin rəhbərliyi adından tədbir iştirakçılarını Qurban bayramı münasibətilə təbrik edib, Vətənimizin daha xoşbəxt gələcəyi naminə hər kəsin öz xidmət sahəsində bundan sonra da Vətənə, dövlətə, xalqa sədaqətlə xidmət edəcəyinə əminliyini bildirib.

Qeyd olunub ki, əlamətdar və tarixi günlərdə, eləcə də mübarək Ramazan və Qurban bayramlarında ölkəmizin hər yerində olduğu kimi, Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində də silsilə tədbirlər təşkil edilir. İlk növbədə, müasir müstəqil dövlətimizin qurucusu ümummilli liderimiz Heydər Əliyevin, şəhidlərimizin məzarları ziyarət olunur, şəhid ailələrinə və yaralılara baş çəkilir, Vətən müdafiəçiləri də heç vaxt diqqətdən yayınmır.

Tədbirdə nəzərə çatdırılıb ki, bu gün ölkəmizdə artıq ordu ilə xalqın daha sağlam mənəvi birliyi yaranıb və bu birlik, həmrəylik 44 günlük Vətən müharibəsi zamanı bir daha öz təsdiqini tapdı. Azərbaycanın təcavüzkar Ermənistan tərəfindən işğal edilmiş tarixi torpaqlarının azad olunması, respublikamızın ərazi bütövlüyünün bərpası uğrunda "Dəmir yumruq" əməliyyatı ilə başladığı Vətən müharibəsində qazanılan möhtəşəm qələbədə, Müzəffər Ali Baş Komandan İlham Əliyev başda olmaqla, hər bir Azərbaycan vətəndaşının, hər bir hərbi qulluqçunun böyük xidmətləri vardır. Vətən isə bu xidmətləri heç vaxt unutmur. İlk növbədə hərbi əməliyyatlar zamanı qanları ilə qalibiyyət dastanı yazan, əbədiyyət zirvəsinə ucalan şəhidlərimizə, onları boya-başa çatdıran ata-analarımıza minnətdarıq, onlara borcluyuq.

A.Qurbani bildirib ki, Vətən müharibəsi cəbhələrində respublikamızın bütün bölgələrindən olan igidlərlə yanaşı, Şəki rayonundan pərvazlanan oğullar da əsil qəhrəmanlıq, şücaət nümunələri göstəriblər. Şəhidlik zirvəsini fəth edərək xalqımıza böyük Qələbənin sevincini yaşadan şəkili əsgər və zabitlərdən Elşən İbrahimov, Mərdan Mehdizadə, Xəyal Məmmədov, Bakıxan Səlimli, İbrahim Məmmədov, Ətraf Qənimətov, Kənan İsrafilov, Röyal Xasıyev, Fərid İzzətli və neçə-neçə qəhrəman döyüşçümüz bu gözəl diyarda dünyaya gəlib, Vətənə layiqli övladlar kimi tərbiyə olunaraq boya-başa çatıblar. Qəhrəmanlıq isə qəhrəmanla ölmür, onun ömrü uzundur. Bu gün Azərbaycan Ordusunda şəhidlərimizin minlərlə, on minlərlə davamçıları var və onlar Müzəffər Ali Baş Komandanın əmrlərinə hər an hazırdırlar.

Tədbirdə Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin hazırladığı "Qələbəyə gedən yollar" klipi nümayiş etdirilib və klip iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Müdafiə Nazirliyinin əməkdaşı polkovnik-leytenant Namiq Cavadov deyib: "Vətən müharibəsində olduğu kimi, müharibədən sonra da ictimaiyyətlə əlaqələrimiz daha da möhkəmlənib. Ordumuza göstərdikləri dəstəyə görə onlara bir daha minnətdarlığımızı bildiririk. Qeyri-hökumət təşkilatlarından biri də xalqımızın vətənpərvər qızı Nuranə Şıxaliyevanın rəhbərlik etdiyi "Əsgərə xatirə kitabı" layihəsi ilə fəaliyyətə başlayan və beş ildən çoxdur ki, Azərbaycan əsgərinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin daha da yüksəldilməsində səylərini əsirgəməyən ictimai birlikdir. Məhz bugünkü tədbir də bilavasitə onların maddi və mənəvi dəstəyi ilə reallaşıb".

Şəki şəhər İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri, Vətən müharibəsi iştirakçısı Tural Məmmədov çıxış edərək tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Şəki rayonundan olan Vətən müharibəsi şəhidlərinin hər birinin döyüş yoluna nəzər salınıb. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıq nümunələrinə, həmçinin hərbi vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiklərinə görə onların ölümlərindən sonra dövlətimizin başçısının sərəncamları ilə yüksək qiymətləndirilərək döyüş orden və medalları ilə təltif olunduqları vurğulanıb.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki şəhər şöbəsinin əməkdaşı Turxan Müseyibov şəkili gənclərin bu gün də müddətli həqiqi hərbi xidmətə böyük həvəslə getdiklərini, valideynlərin öz övladlarını qürur hissi ilə əsgərliyə yola saldıqlarını, peşə seçimində gənclərin hərbi peşələrə daha çox üstünlük verdiklərini qeyd edib.

"Əsgərə xatirə kitabı" layihəsi idarə heyətinin fəxri üzvü Əliş Hüseynov çıxış edərək bundan sonra da xeyriyyəçilik ənənələrinə sadiq qalacaqlarını bildirib.

Şəhid ailələrinə "Vətən müharibəsi şəhidləri" çoxcildliyinin ilk nəşri olan Birinci kitabın nüsxələri hədiyyə edilib.

Şəhid Elşən İbrahimovun anası Xatirə xanım, şəhid Tapdıq Qurbanəliyevin həyat yoldaşı Natəvan xanım və başqaları çıxış edərək şəhidlərə, onların ailə üzvlərinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə, o cümlədən Müdafiə Nazirliyinin rəhbərliyinə, tədbirin təşkilatçılarına minnətdarlıq ediblər.

İstedadlı gənc ifaçılardan olan Kənan Bayramlının ifasında "Bayatı-Şiraz" muğamı tədbir iştirakçılarını xəyalən işğaldan azad olunmuş Vətən torpaqlarına, mədəniyyətimizin, ruhumuzun mərkəzi Şuşaya aparıb. Şəhid valideynləri övladlarının qanının yerdə qalmamasından, eyni zamanda, şəhidlərimizin intiqamının döyüş meydanında alınmasından, tarixi ədalətin və ərazi bütövlüyümüzün bərpa olunmasından, düşmənin torpaqlarımızdan qovulmasından təsəlli tapdıqlarını dilə gətiriblər.



Azərbaycan Dövlət Milli Akademik Dram Teatrının aparıcı aktrisası, Əməkdar artist Vəfa Zeynalovanın bədii qiraət etdiyi Süleyman Rüstəmin bu gün də aktual olan "Ana və poçtalyon" şeiri alqışlarla qarşılanıb.

Beynəlxalq yaradıcılıq festivallarının iştirakçısı Nuray Rəhmanqızının şəhid övladlarının əhatəsində məharətlə ifa etdiyi "Şəhid qızıyam" mahnısı tədbir iştirakçılarına duyğulu anlar yaşadıb.

Sonda xatirə şəkli çəkilib, şəhid ailələrinə bayram sovqatları təqdim olunub.

# Şəhid ata, şəhid oğul və 27 yaşdan sonra başlayan ömür

Ömür son nəfəslə tamamlanmır...

Ölümdən sonra başlayan ömürlər tarixin yaşdaşı olur. Vətən üçün yaşanılmış bütün ömürlər belə ömürdü. Min illərdi Qazan xan deyirik, Beyrək deyirik, Qaraca Çoban deyirik, ... On illərdi Əlif Hacıyev deyirik, Tofiq Hüseynov, Vəzir Orucov, Yusif Mirzəyev, İsgəndər Aznaurov, Əliyar Əliyev, ..., Mübariz İbrahimov, Çingiz Qurbanov, ... deyirik. Onların hər birinin hər döyüşü xalqımızın taleyindən süzülüb gələn döyüş əzmiydi, qələbə ruhuydu. Bu əzmin, bu ruhun harayına, çağırışına qənşər gedənlər də qəhrəmanlıqla döyüşdü. Döyüşənlərdən neçəsi şəhid oldu; Vətən müharibəsində bütün şəhidlərimiz ruhən döyüşlərdəydi...

Azərbaycan Ordusu Ermənistan ordusunu darmadağın etdi, torpaqlarımız işğaldan azad edildi. İllər çəkən münaqişəni Ali Baş Komandanın döyüş əmri ilə Azərbaycan Ordusu qətiyyətlə həll etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində Vətən müharibəsinin mahiyyəti haqqında dedi: "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir. Başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq". Belə bir ölkə qalib dövlətin dinc yanaşı yaşama şərtlərini qeyd-şərtsiz qəbul etməlidir. Bunu hərbi qüdrət də tələb edir, dünyəvi siyasətin mahiyyəti də. Həm də müharibə başa çatıb, üçtərəfli saziş imzalanıb. Ermənistan bu sazişin tələblərinə əməl etmir. Silahlıları bu və ya digər ərazidə Azərbaycan Ordusunun hissələrinə müxtəlif səviyyəli həmlələr etməyə cəhd göstərir, mövqelərimizi atəşə tuturlar. Ordu hissələrimiz düşmənin istənilən tərpənişinə ciddi cavab verir. Ancaq... Ancaq düşmənin snayperləri hələ də marıqdadı, hərbçilərimizi nişangahda saxlayır, məqam düşəndə atəş açır...

Telman Yaqubov Beyləqanda yaşayırdı. Birinci Qarabağ müharibəsində Füzulidə döyüşmüşdü. 1994-cü ildə Füzuli ətrafında gedən döyüşlərdə şəhid olmuşdu. Beyləqan rayonunun Birinci Şahsevən kəndində dəfn edilib. Onda Fərmanın 1 yaşı vardı. Atasını xatırlaya bilməsə də, sonralar Vətən sevgisi, döyüşlərdə iştirakı, döyüşləri, cəsarəti haqqında qohumlarından, atasının döyüşçü yoldaşlarından çox eşitmişdi. Eşitdikləri qəlbinə sevgi kimi axmışdı. Ona da "Vətəni sev" deməsələr, dərk etdi, özü sevdi. Çağırışçı yaşına çatdı, hərbi xidmətə gedəcəyi gün atasının ruhuna xitabən "Əsgər gedirəm, ata" deyəcəkdi. Onun sevincini hamı duyacaqdı, ancaq dediklərini heç kim eşitməyəcəkdi...




Fərman öz ömrünü yaşaya-yaşaya atasının ömrünün davamını da yaşayırdı. Böyüdükcə bir ömürdə iki ömür yaşamağın fəzilətlərini də dərk edirdi, məsuliyyətini də. Orta məktəbdə oxuyanda digər həmyaşıdları kimi ona da "Böyüyəndə kimə oxşamaq istərdin?" sualına "Atama" cavabını verdiyinə zərrəcə şübhəm yoxdu. Zəmanətim: Atanın Birinci Qarabağ müharibəsində, oğulun İkinci Qarabağ müharibəsində döyüşməsidi. Zəmanətim həm də Birinci Qarabağ müharibə-sində atanın, İkinci Qarabağ müharibəsində oğulun döyüş yoludu. Ata da, oğul da qələbənin əsgəri olmaq istəyiblər. Ata şəhid olub. Oğul Zəfərəcən döyüşüb, Zəfəri qaliblər sırasında yaşayıb. 2020-ci il noyabr Zəfərinin acısını yaşaya-yaşaya nostalji duyğulara qul olan işğalçı dövlətin snayperinin atdığı güllədən şəhid olub...

Fərman Yaqublu gizir idi. Vətən müharibəsində o da döyüşmüşdü.

Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilmişdi. Xidmətini "N" hərbi hissəsində davam etdirirdi.

İyulun 24-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonu ərazisindən Kəlbəcər istiqamətindəki mövqelərindən snayperlə Azərbaycan Ordusunun giziri Fərman Yaqublunu qətlə yetirdi...

Şəhid Telman Yaqubovun oğlu gizir Fərman Yaqublu şəhid oldu.

Şəhid olanda Telman Yaqubovun 27 yaşı vardı. Şəhid atanın oğlu da 27 yaşındaydı.

Telmanın da, Fərmanın da ömrü 27 yaşda bitmədi; şəhid ömürlərə nəhayət olmur. Belə ömürlər zamanı tarixləşdirir, anlara tarix qüdrəti verir.

Telmanın da, Fərmanın da 27 yaşdan sonrakı ömrü əbədiliyin cığırdaşıdı; şəhidlərimizin ömürləri əbədiyyən yaşayacaq - yaşayan azərbaycanlıların, ruhən azərbaycanlılarla olanların ömründə yaşayacaq!..

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

# Azərbaycan əsgəri qəhrəmanlıq salnaməsi yazdı




*Hərbi hissələrdə son döyüşlərin iştirakçıları ilə görüşüb tanış oluruq. O oğullarla ki, 44 günlük Vətən müharibəsində tarixi torpaqlarımızın hər qarışının azad olunması uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək qazanılan qələbədə pay sahibləri oldular. Onların hər birinin amalı bir olsa da, döyüş xatirələri bir-birindən fərqlənir. Döyüşlər zamanı xüsusi təyinatlılar, kəşfiyyatçılar, aviasiya və hava hücumundan müdafiə bölmələri, motoatıcı bölmələr, artilleriya divizionları, mühəndis-istehkam qoşunları, rabitəçilər və adını çəkmədiyim digər qoşun növləri və bölmələrinin şəxsi heyəti birləşərək dəmir yumruqla düşmənə sarsıdıcı zərbələr endirdilər. 44 günün tamamında darmadağın olunan ordusunu görən erməni siyasi-hərbi rəhbərliyi kapitulyasiya aktını imzaladı. Haqq savaşımız rəşadətli ordumuzun qələbəsi ilə başa çatdı.*

Leytenant Adəm Novruzlu da tarixi qələbədə pay sahibi olan hərbçilərimizdəndir. Gənc olmasına baxmayaraq, kifayət qədər təcrübəli və yüksək hərbi intizama malik zabit tabeliyindəki şəxsi heyətin də sevgisini qazanmağı bacarıb. Xidmətinin ən yaddaqalan dövrünün 44 günlük Vətən müharibəsi olduğunu deyən gənc zabit söhbətə döyüşlərdə şəhid olan hərbi qulluqçularımıza rəhmət, yaralı hərbçilərimizə şəfa diləyərək başladı. "30 ilə yaxın müddətdə düşmən işğalında olan tarixi torpaqlarımız bu gün azaddır. 44 günlük Vətən müharibəsi Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən Böyük Qələbə ilə başa çatdı. Bu gün şəhidlərimizin ruhu şaddır, yurdundan məcburi şəkildə didərgin düşən hər bir kəs sevinc göz yaşları içindədir, şəhid valideynlərinin başları dikdir, xalqımız hər bir Vətən oğluna sonsuz minnətdardır. Hər bir azərbaycanlı Vətən müharibəsi ilə tarix boyu qürur duyacaq. Bilirik ki, döyüş itkisiz olmur. Şəhid qanı ilə torpaq Vətənləşir. Bu döyüş tarixən xalqımızın qəhrəman xalq olduğunun isbatıdır. Onlar ölümün gözünə dik baxaraq, əzəli torpaqlarımızı işğaldan azad etmək üçün döyüşlərə qatıldılar. Əminəm ki, xalqımız torpaqlarımız uğrunda şəhid olan qəhrəmanlarımızı hər zaman xatırlayacaq, adını layiqincə yaşadacaq. Onların hər biri bizim başımızın tacı, Vətənimizin xilaskarıdır. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Kamil Şıxmuradov Qubadlı istiqamətində gedən döyüşlərdə düşmənin artilleriya atəşi nəticəsində şəhid oldu. Fəxr edirəm ki, şəhid Kamil Şıxmuradov kimi döyüş yoldaşım olub, onun timsalında hər bir şəhidimizlə qürur duyuram. Gələcək nəsil bilməlidir ki, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək Azərbaycan əsgəri qəhrəmanlıq salnaməsi yazdı".

"Bizim bölməmiz də döyüşlərin ilk günündən torpaqlarımızın azad olunması uğrunda gedən savaşa qatılmışdı", - deyə leytenant Adəm Novruzlu sözünə davam etdi. - Füzulidən, Cəbrayıldan, Zəngilandan keçən döyüş yolumuz Qubadlıya qədər uzandı. Hər gün irəliləyirdik. Qələbəyə doğru can atırdıq. Torpaqlarımız qarış-qarış, addım-addım azad olunurdu. Azərbaycan əsgəri şəhidlərin qisasını almaq üçün düşmənə qarşı gecə-gündüz vuruşurdu, xalqın arzusunda olduğu günü tez yetişdirmək üçün vaxtından, vədəsindən, olduğu yerin relyefindən və iqlimindən asılı olmayaraq həvəslə döyüşürdü. Mühəndis-istehkam qoşunlarının fəaliyyəti haqqında məlumatı olan hər bir kəs yaxşı bilir ki, maneələrin dəf edilməsi, bölmələrin hərəkətində fasiləsizliyin təmin olunması üçün adıçəkilən qoşunların üzərinə böyük yük düşür. Düşmənin hərəkətini ləngitmək, manevr imkanlarını zəiflətmək də bizim üzərimizə düşən əsas tapşırıqlardandır. Döyüşlər vaxtı qoşunlarımızın maneəsiz olaraq düşmənin müdafiə xəttini yarmasını təmin etdik, qarşımıza qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlməyi bacardıq. Döyüşlər vaxtı, həmçinin yararsız vəziyyətə salınmış yolların da bölmələrimizin rahat irəliləməsi üçün mühüm tapşırıqları uğurla yerinə yetirdik. Nəhayət, 44 günlük Vətən müharibəsi Azərbaycan Ordusunun şəxsi heyəti sayəsində tarixi zəfərlə başa çatdı. Döyüşlər başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Qubadlının azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunmuşam. Bu gün bölməmiz işğaldan azad olunan torpaqlarda mənfur düşmənin basdırdığı minaların axtarılması və onların zərərsizləşdirilməsi üçün çalışır. Müasir avadanlıq və vasitələrin köməkliyi ilə müxtəlif təyinatlı minalar tərəfimizdən aşkarlanaraq zərərsizləşdirilir. Yeni standartlara cavab verən mühəndis avadanlıqlarından istifadə qaydalarını öyrənmək üçün hərbçilərimiz kurslarda iştirak edir, əldə etdiyi bilik və bacarıqları praktiki olaraq uğurla həyata keçirdikdən sonra bölməmizin fəaliyyətində iştirak edirlər.

Bu gün hər bir azərbaycanlı "Qarabağ Azərbaycandır!" deyir. Şanlı Ordumuz ölkəmizin beynəlxalq hüquqla tanınan qanuni torpaqlarını işğaldan azad etmək üçün haqq savaşında qalib gəldi. Şəhidlərimiz, qazilərimiz canlarını, sağlamlıqlarını Vətən üçün fəda etdilər. Bu gün hər birimizin üzərinə düşən əsas vəzifə Vətənimizi göz bəbəyimiz kimi qorumaqdır. Eşq olsun, qalib Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Şəhidlik zirvəsinə ucalan 25 yaşlı Cəbrayıl Qasımov





Əsrlərə bərabər 44 gün ərzində öz şücaətləri ilə igid əsgərlərimizin hərəsi bir qəhrəmanlıq dastanı yazdı. Ana torpağa tükənməz sevgilərindən güc aldılar, vuruşdular. İşğalçı düşmənin üzərinə yeriyəndə də, torpaq uğrunda son damla qanlarınadək vuruşub şəhidlik zirvəsinə ucalanda da son sözləri "Vətən" oldu. Belə qəhrəman əsgərlərimizdən biri də şəhid Cəbrayıl Qasımovdur.

AZƏRTAC xəbər verir ki, Cəbrayıl Baloğlan oğlu Qasımov Vətən uğrunda canlarından keçməyi gözə alaraq, torpaqlarımızı mənfur düşməndən azad etməyə könüllü yollanaraq şəhid olan igid oğullarımızdandır. O, 1996-cı il iyulun 16-da Masallı rayonunun Ərəb kəndində doğulub. 2002-2013-cü illərdə Masallı şəhər 1 nömrəli tam orta məktəbində oxuyub. Orta təhsilini başa vurduqdan sonra 2014-cü ilin iyulunda çağırışçı kimi hərbi xidmətə yollanıb. Xidmətini "N" hərbi hissəsində rabitəçi kimi davam etdirib. 2016-cı ilin yanvarında ordu sıralarından tərxis olunan Cəbrayıl ailənin yeganə oğul övladı idi. Aprel döyüşlərində düşməndən qisas almaq ona nəsib olmasa da, general-mayor Polad Həşimovun və bir neçə hərbçimizin düşmən təxribatı nəticəsində şəhid olması Cəbrayılı çox narahat edir.

Şəhidin anası Fatimə Qasımova deyir: "Cəbrayıl əsgərlikdən gələndən sonra iyul hadisələri oldu. Polad Həşimovun, Anar Novruzovun ölümündən sonra dedi ki, ana, mən də gedirəm müharibəyə. Mən, həqiqətən, yalvardım ki, Cəbrayıl, sən bir dənə balasan, iki ildir nişanlısan, məni peşman etmə. Ana, bəs Vətəni kim qoruyacaq? Mən gedəcəyəm, əgər qismətimdə şəhidlik varsa, şəhid olaram, olmaramsa, sağ-salamat qayıdaram".

Rəşadətli Azərbaycan Ordusunun cəsur əsgəri Cəbrayıl Qasımov Vətən müharibəsində Füzuli və Cəbrayıl rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə düşmənə qarşı böyük mərdliklə döyüşərək şəhidlik zirvəsinə ucalıb. Şəhidin nəşi ötən il oktyabrın 9-da doğulduğu Ərəb kənd qəbiristanlığında izdihamla torpağa tapşırılıb.

Qəhrəmanlıq salnaməmizə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Qələbədə Qasımovlar ailəsinin də payı var. Cəbrayılın atası Baloğlan Qasımov Birinci Qarabağ müharibəsində 4 il könüllü olaraq düşmənə qarşı mərdliklə döyüşüb. Oğluna uşaqlıqdan düşmənin mənfur niyyətindən və hiyləsindən, Xocalıda soydaşlarımızın başına gətirilən müsibətlərdən tez-tez danışardı. Müharibə başlayanda Cəbrayıl ürəyində olan arzusuna çatır. Cəsur əsgər atasının yarımçıq qalan işini qanı bahasına tamamlayır.

Şəhid atası Baloğlan Qasımov deyib: "Mənə qismət olmadı bu qələbəni qazanmaq, torpaqları azad etmək. 30 il üstündən keçdikdən sonra bu qələbəni qazanmaq övladıma qismət oldu. Oğlum şəhidlərimizin və qazilərimizin qisasını aldı. Sonraki illərdə və 44 günlük müharibədə şəhid olan silahdaşlarının qanını yerdə qoymadı. Xocalının, Laçının, Şuşanın qisası alındı. Bütün şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı diləyirəm".

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirak edən və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən əsgər Cəbrayıl Baloğlan oğlu Qasımov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub. Cəbrayıl bu il 25 yaşını cənnətdə tamamladı. Cənnətdəki yubileyin, qazandığın uca zirvən mübarək, Cəbrayıl!

*Tibb xidməti*

# Azərbaycanın hərbi səhiyyəsi müasir tələblərə tam cavab verir

Bu gün ordumuz döyüş hazırlığı, silah-sursatı ilə yanaşı, tibb xidməti ilə də dünya orduları arasında ön sıralardadı. Yeni salınan, həmçinin tam təmir olunan hərbi hissələrdə yaradılan şəraitə nəzər salsaq görərik ki, yeni istifadəyə verilən tibb məntəqələri müasir avadanlıqlarla təchiz olunub, müasir standartlara cavab verir. Ordumuzda şəxsi heyətin sağlamlığını təmin etmək, sağlam həyat səviyyəsini qorumaq hərbi hissələrin tibb xidmətlərinin qarşısında duran başlıca vacib məsələlərdən biridir. Yerləşdiyi yerdən asılı olmayaraq bütün hərbi hissələrdə tibb personalı vəzifə borclarını layiqincə yerinə yetirir. Hər bir əsgərə xüsusi diqqət və qayğı göstərilir. Bu səbəbdən də şəxsi heyətin sağlamlığı dövlət başçımızın və ordu rəhbərliyinin qarşısında duran əsas vəzifələrdəndir. Dövlət və ordu rəhbərliyi bu işdə üzərinə düşən vəzifələri yerinə yetirir, müasir tibb müəssisələri və tibb məntəqələri tikərək hərbi qulluqçuların istifadəsinə verir. Fəxrlə deyə bilərik ki, bu gün Azərbaycanın hərbi səhiyyəsi müasir tələblərə tam cavab verir.

"N" hərbi hissəsində tibb məntəqəsinə də baş çəkdik. Əsgərlərin stasionar müalicəsi üçün lazımi şərait yaradılan, müasir avadanlıqlarla təchiz olunan hərbi hissənin tibb məntəqəsindəki səliqə-sahman diqqətimizi cəlb etdi. Hərbi hissənin tibb məntəqəsinin sanitar-təlimatçısı kiçik çavuş Sərxan Rəhimovun sözlərinə görə, gün növbətçi həkimlərin və sanitar-təlimatçıların qaldırılması ilə başlayır. "Məntəqənin tibbi personalının iştirakı ilə səhər düzülüşü keçirilir. Xəstələr müayinə edilir. Müayinə və müalicə işləri aparıldıqdan sonra xəstələrin ambulator qəbulu aparılır. Tibb xidmət rəisinin və ya tibb məntəqə rəisinin iştirakı ilə konsultasiyalara cəlb olunuruq. Vaxtaşırı bölmələrdə əsgərlərin sağlamlıq qayğıları, gigiyenası ilə yerində maraqlanırıq".



"Hərbi hissə komandirinin göstərişinə əsasən, şəxsi heyətin sağlamlığının qorunması üçün tibb xidməti müntəzəm tədbirlər həyata keçirir", - deyə kiçik çavuş Sərxan Rəhimov söhbətinə davam etdi. - İlk işimiz gənc əsgərlərin sağlamlıq durumunun diqqət mərkəzində saxlanılmasıdır. Hərkəsə məlum olduğu kimi, ölkəmizdə və dünyada COVİD-19 pandemiyası hələ də sona çatmayıb. Aparılan profilaktik tədbirlər nəticəsində hərbi hissəmizin şəxsi heyəti arasında koronavirus pandemiyasına yoluxma halı baş verməyib. Ümumiyyətlə, son illər keçirilən tibbi tədbirlər nəticəsində xəstəliklər minimuma enib. Qurulan yüksək şəraitin, vaxtında göstərilən tibbi müdaxilənin hesabına şəxsi heyət arasında xəstələnmə halları çox az olur. Ona görə ki, hansısa kiçik problemi olan əsgərlər komandirlər tərəfindən dərhal məntəqəyə yönləndirilirlər. İlkin tibbi yardım göstərilən əsgərlər ehtiyac duyulduqda hospitala yerləşdirilirlər.

Tibb məntəqəsində müayinə olunan əsgərlərlə həmsöhbət olduq. Əsgər Xəlil Tağıyev ilk dəfə müraciət etdiyini bildirdi. O qeyd etdi ki, həkimlər və tibb personalı müalicə və müayinə üçün müraciət edənlərə həmişə diqqət və qayğı ilə yanaşır, lazımi köməklik göstərirlər. "Xidmətə başladığımız ilk gündən hərbi hissədə diqqət və qayğı ilə əhatə olunduq. Komandirlərimiz daima bizim sağlamlığımızla maraqlanırlar. Tibb məntəqəsinə ilk dəfədir müraciət edirəm. Burada mənə hər cür tibbi yardım göstərildi, diqqətlə yanaşıldı. Ümid edirəm ki, tez bir zamanda sağalıb xidmətimə davam edəcəyəm."

Tibb məntəqəsində gördüklərimizdən bir daha əmin olduq ki, məntəqədə çalışan həkimlər, feldşerlər, tibb bacıları hərbi qulluqçuların sağlamlığının qorunması, qarşıya qoyulan vəzifələrin yüksək peşəkarlıq və keyfiyyətlə yerinə yetirilməsi üçün bütün imkanlardan lazımınca istifadə edirlər. Vətən torpağını qorumaq müqəddəs və şərəfli olduğu kimi, onun müdafiəçisinin sağlamlığının keşiyində dayanmaq da şərəflidir. Hərbi həkimlər yaradılan şəraitdən səmərəli istifadə edir, hərbi qulluqçulara nümunəvi xidmət göstərirlər. Onlar hərbi qulluqçularımızın, əsgərlərimizin qayğısına qalmaqla həm Azərbaycan Ordusuna, həm də dövlətçiliyimizə xidmət etmiş olurlar.

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**

*Vətən müharibəsi: xatirə də tarixdi*

# Yaralansalar da yaralıları təhlükəsiz yerə çıxarda bildilər

***Cəbrayılın Şükürbəyli kəndi işğaldan azad edilmişdi. Düşmən piyadalarının, kəşfiyyat qruplarının əks-həmlə etmək imkanı ola bilməzdi - döyüşçülərimiz olduqca ciddi mühafizə şəbəkəsi yaratmışdı. Həzin-həzin meh əsirdi. Uğur üstə olanlarımızı yolundan saxlamağa bu mehin gücü çatmazdı. Bu uğur qalibiyyət uğuruydu...***





Mövqe qələbələri qazanılırdı...

Müharibədə istirahət kəlməsi bir qədər qəribə səslənir. Zabit Orxan Qədirovun təklifi ilə döyüşçülər istirahət edirdilər. Əmin idilər ki, sonrakı əməliyyatları da beləcə - uğurla başa çatdıracaqlar, mövqe qələbələri qazanacaqlar, Böyük Qələbəni tezləşdirənlərin sırasında olacaqlar. Bu istirahət qısamüddətli nəfəs dərmək idi - Babək Şirinovun və Alik Yusifovun rəhbərlik etdiyi bölmələr gəlib çatana kimi davam edəcək, döyüş əmri onda veriləcəkdi. Belə məqamlarda vaxt ötüşmür elə bil, elə bil vaxt ləng keçir. Döyüşçülərin hamısı nizamlı-nizamsız düşüncələrin cazibəsindəydi. Bu düşüncələr bir azdan başlayacaq döyüşlərin güllə, mərmi səslərinə can atırdı; birbirindən xəbərsiz düşüncələr bir-birinə mətərislənmişdi...

Rütbəsindən asılı olmayaraq hamısı veriləcək əmrin döyüşçüsüydü...

Güclənməyə heyi qalmayan mehin qanadları yorulurdu...

Babək Şirinovun və Alik Yusifovun rəhbərlik etdiyi bölmələr gəlib çatanda torpağa uzananlar dirsəkləndi, dirsəklənənlər ayağa qalxdı. Sanılı saniyələr ötüşüncə döyüş əmri verildi. Gedəcəkləri, döyüşə başlayacaqları istiqamətlər bölmələrin komandirlərinə deyilmişdi. Orxan Qədirovun komandiri olduğu bölməyə avtomobillərlə Şükürbəylidən Maralyandakı zastavaya qayıtmaq, döyüş əmrini orada gözləmək tapşırılmışdı.

Əmrin icrasına başlayana kimi bir nəfəs dərimi vaxt ötüşdü. Yaranan asudəlik anlarında ermənilər artilleriya atəşinə başladılar. Mərmilər yan-yörələrinə sancılırdı. Döyüş başlayanda düşmənin öz bölmələrini artilleriya ilə himayə edəcəyi ehtimalı nəzərə alınmışdı, ancaq məhz bu məqamlarda başlayacağı gözlənilmirdi. Bu gözlənilməzlik ötəri həyəcan yaratdığı anlarda (bu atış bölmələrin əmri yerinə yetirəcəyi müddəti bir atış qədərincə ləngidə bilərdi) şəxsi heyəti aparmalı olan avtomobillərdən biri vuruldu. Orxan Qədirovla Fuad Nəcəfov yanan maşına tərəf qaçdılar. Çatanda bildilər ki, sürücü yaralanıb, yarası ağır olmasa da təxliyə edilib...

Düşmənin artilleriya atəşi çox çəkmədi...

Dünənki döyüşdə növbəti mövqe ermənilərdən təmizlənmişdi. Erməni zabitləri üçün tikilmiş 3 otaqlı binada yerləşdilər. Bir qədər çılğınlaşmış külək dünənə kimi bu həndəvərlərdə arxayınlıqla gəzişən erməni hərbçilərin ayaq izlərini toz-tomura bələmişdi. Tikililər salamat qalmışdı - əvvəlki döyüşdə ermənilər müqavimət göstərə bilməmiş, qaçmışdı, tikililəri uçurmağa, dağıtmağa macal tapmamışdı. Bəzi kəndlərimiz niyə bu görkəmdədi? - ermənilər kəndləri işğaldan Vətən müharibəsinə qədərki dövrdə uçurubdağıtmışdılar.

Bura dairəvi səngərlə əhatələnmişdi. Yaxınlıqda hündür müşahidə qülləsi vardı, qərargah da, anbarlar da oradaydı. Gecəni burada qaldılar. Payızın bu uzun gecəsində dan yerinin sökülləcəyi anları gözləyirdilər. Yuxusuz olsalar da, heç birinin gözləri yuxuya tamsınmırdı, heç kimin kirpiyi kirpiyinə toxunmurdu. Kimsə zümzüməylə "Gecə yaman uzundu..." - dedi. Gülüşdülər; gecənin qaranlığına qarışan bu təbəssüm gözəl sevgi şeirinə bəstələnmiş mahnının döyüş ərəfəsində xatırlanmasının təbəssümüydü, yəni, uca göylərin mehrabı olan eşqin də mehrabı var - Vətən sevgisi...

Yol çox tozlu idi. Payız yeli yolun toz-tomurunu döyüşçülərin qənşərinə sərirdi. Onda döyüşçülərdən biri baxışlarını göy üzündən yığıb ağır-ağır dilləndi: "Toz-tomuru üst-başımızdan təmizləyəcəyik. Məqsədimiz bu torpaqları düşmənlərdən təmizləməkdir". Kəlmələr döyüş əzmini də kükrətdi, qələbə ruhunu da.

Son təlimatlandırma başa çatanda hərəkətə başladılar.

Orxan Qədirovun rəhbərlik etdiyi bölmənin sağıyla Ziya Yusifovun rəhbərlik etdiyi bölmə, soluyla Sirac Siracovun rəhbərlik etdiyi bölmə irəliləyirdi. Gözəllik müharibədə də gözdən yayınmır; gözəl mənzərələri gözlərinə köçürə-köçürə Əmirvarlı kəndinə çatdılar.

Bölmələr bir-birilərini qoruyaraq düşmənin süni yolla qurduğu və mövqeləndiyi qum səddini keçməli, Soltanlı kəndini düşməndən azad etməli idi.

Ormanlıqdaydılar. Sağ tərəfləri sıx kolluğuydu. Sol tərəfləri keçilməz moruqluq. Gün yaxmışdı. Günün bu vaxtlarında, niyəsə, adamın qəlbi bir qədər qubarlanır. Şər qarışırdı. Anlar ötüşdükcə kolların yarpaqları arasına sığınan moruq dənələri görünməz olurdu. Əl uzadıb moruq dərmək istəyənlər də fikrindən daşınırdı. "Əlini kollara yem eləmə, döyüşərik, qələbə qazanarıq, doyunca yeyərsən", - kimsə kiməsə səsləndi; döyüş ərəfəsində bu səmimi zarafat-atmaca, bu atmaca-zarafat hamısının düşüncələrinin qırışığını açmışdı...

Üzümlüyü sürünərək keçdilər. Əmirvarlı kəndinə çatdılar, kəndin sonuncu evinin yanında dayandılar. Ev uçuq olsa da dağılmamışdı. Sel-su axdığına görə düşmənin tank üçün düzəltdiyi səngəri qamış basmışdı. Düşmənin "val"ı Araz çayı istiqamətiylə, döyüşçülərimizin sağ tərəfi boyunca yüksəkliyə doğru uzanırdı. Orxanın əmri ilə Dövranla Vətən irəli sızaraq valı müşahidə etməyə başladılar. Düşmən duyuq düşmədi.

Valın arxasında tikili varmış. Komandirin göstərişi ilə Rahil Əhədov və Ramil Məmədov reaktiv qumbara ilə düşmənin mövqelərinə - səngərinə atəş açdılar. Qumbaralardan biri tikilinin damına düşdü, xeyli tələfat verdi. Həmin anlarda bölmələrin verdiyi koordinatlar əsasında artilleriya val istiqamətinə yönləndirildi. Mərmilərin düşmə koordinatlarını öyrənməklə atışlara düzəlişlər verdilər. Orxan Qədirovun göstərişi ilə (və döyüşü idarəetmə mərkəzinin razılığı ilə) val istiqamətində davamlı atəş başladı. Mərmilərin bir neçəsi valın arxasına düşdü...

Düşmən çaşqınlıq içindəydi. Onda Orxan Qədirovun əmri ilə bölmələr açılaraq irəli sızmağa başladılar. Bölmənin snayperi son döyüşdə yaralanmışdı. Onun yerinə yetirməli döyüş tapşırıqlarını zabit Orxan Qədirov öz üzərinə götürdü - snayper tüfəngi ondaydı.

Valın qarşısına 140-150 addıma qədər sızıb atışmağa başladılar.

Erməni səngərindən erməni dilindən fərqli dildə danışıqlar, bağırtılar eşidilirdi. Düşmənə köməyə gələn muzdlular da məhv edilirdi. Rahil Əhədov, Ülfət Qasımov, Altun Rzazadə sağ istiqamətdə düşmənin valını atəşə tutur, Tural Rəhmanlı, Ziya Fərziyev, Dövran Dadaşov, Orxan Qədirov ön istiqamətə, Namik Nuriyev, Rizvan Osmanov, daha beş döyüşçü sol cinah üzrə atəş açırdılar. Döyüşçülərimiz düşmənin hansı mövqeyindən az atış gəldiyini - boşluqları müəyyənləşdirərək həmin istiqamətdən zərbə endirirdi. Döyüş getdiyi anlarda Tural Orxana bildirdi ki, oradan bir nəfər atəş açmır, başını qaldırıb baxır, sonra yox olur, az sonra yenidən görünür. Orxan snayper tüfənginin vasitəsi ilə onu müşahidə etməyə başladı. Gördü ki, Turalın müşahidələri dəqiqdir - düşmən atəş açmır, baxır, görünməz olur, az sonra yenidən görünür. Bildi ki, o, döyüşçülərimizə tərəf açılan atəşlərə düzəlişlər verir. Dərhal onu nişan aldı, barmağı tətiyi sıxdı. Düşmən öldürüldü (sonralar Orxan deyəcəkdi ki, bu məsafədən atəşin dəqiq olacağına şübhəm olsa da, əlimi saxlaya bilməzdim...). Bu, düşmənin valında çaxnaşma yaratdı. Görünür, öldürülən böyük rütbəli zabit imiş.

Döyüşçülərimizə tərəf qarışıq atəşlər açılırdı.

Altun Rzazadənin başına dəyən güllə dəbilqəni yerə atdı (yeri gəlmişkən, müəyyən çəkiyə və sürətə malik olan güllənin xarici ballistikası var və o, sərt, möhkəm cismə dəyəndə döyüşçünün boynunu qıra da bilər...). Altuna su verdilər. Ölümdən dönmüşdü, yenidən doğulmuşdu sanki.

Gicitikan kolunun içindəydilər. Tərpənmək mümkün deyildi. Artilleriya və snayper atəşləri altına düşəndə hiss etdilər ki, düşmən onların mövqeyini müəyyənləşdirib. Döyüşçülərimiz mövqelərini bir qədər də möhkəmlətdilər.

Rahil vurulanda Orxan onun yanına süründü. Orxan çatana kimi Ülfət Rahilin yaralarına baxış keçirmişdi - iki güllə dəyibmiş. İlkin Rahilə yardım göstərir, yaraları sarıyırdı. Orxanın tapşırığı ilə Ülfətlə Dövran Rahili döyüşün içindən uzaqlaşdırırdı. Kolluqdan çıxa-çıxda Dövrana snayper gülləsi dəydi. Əməliyyat şəraiti gərginləşəndə Ziyanın rəhbərlik etdiyi bölmə yaralıları döyüşün içindən çıxartdı.

Düşmən çaşqınlıq içindəykən Emin Ahəngari ilə Fuad Nəcəfov düşmənin valına sızaraq qumbara atdılar. O anlarda Orxan Qədirovun əmri ilə bölmə manevr etdi. Sirac Siracov yaralandığına görə onun rəhbərlik etdiyi bölməyə rəhbərliyi də Orxan Qədirov öz üzərinə götürdü.

Sakitlik çökmüşdü. Buna döyüşdə nəfəs dərmə də deyirlər, hücuma hazırlaşma da, komplektləşmə üçün vaxt qazanma da. Kim vaxt qazanırdı? - hücum edən tərəfmi, müdafiə olunan tərəfmi? Müdafiə olunan tərəfə əlavə qüvvə gəlməsi mümkün deyildi. Bu müddət ərzində düşmən o qədər də ciddi olmayan manevr edə bilərdi. Döyüşçülərimiz elə mövqelənmişdilər ki, düşmən manevr etsə, yenə nəzarətdə olacaqdı...

Müharibədə yaranan belə sakitlik döyüşçünün xəyallarının bürüncəyinə dönür...

Yaxınlıqda bir əncir ağacı vardı. "Yayda könlümə əncir düşmüşdü. Zəng edib anamdan xahiş etdim ki, Mərdəkanda bağımızın qonşuluğundakı bağlardan əncir alıb saxlasın, gələndə yeyərəm. Anam əncir alıbmış. Üç gündən sonra qayıdanda əncir qalmamışdı, balalarım yemişdi. Döyüşün içində əncir ağacı, ağacda bol meyvə görəndə anam, balalarım, bir də həmin əncir məsələsi yadıma düşdü. Nə qədər təhlükəli olsa da, əl atıb əncir dərdim. Bu yaşımacan ən dadlı ənciri onda yedim. İşğaldan qurtulmuş ağacın meyvəsiydi axı...", - Orxan Qədirov Zəfərdən sonra döyüşdə yaranmış qısamüddətli sakitliyi belə xatırlayır. Döyüşün içində işğaldan azad edilmiş ərazidə yeyilən bir əncir neçə on illərin həsrətini yumşaltmağa da qadirmiş...

Digər bölmələrimiz yuxarı istiqamətdən hücuma başlayanda düşmənin şiddətli və davamlı atışına məruz qaldılar. Namik, Vətən və Tural yaralananları çiyinlərinə alıb döyüşün içindən çıxardanda aralarına minaatan mərmisi düşdü. Qəlpə yaraları aldılar. Ayaq saxlayıb yaralarını bağlamadılar, yaralandıqlarını yaralı döyüşçülərə də bildirmədilər. Əlli-altmış addımlıq məsafə onları heydən salsa da, büruzə vermirdilər, "canlarını dişlərinə sıxıb" sürünə-sürünə çətinliklə də olsa uzaqlaşırdılar. Əlli-altmış addımlıq yol nə qədər uzun yolmuş! Bu uzun yolu sonacan gedə bilsələr, döyüşçü yoldaşlarını ölümdən qurtaracaqdılar, özlərinə də zəruri tibbi yardım göstəriləcəkdi...

Yaralıları təhlükəsiz yerə çıxarda bildilər...

Döyüşçülərimiz hücumu qətiyyətlə davam etdirdilər. Düşmən çarəsizliklə atışa-atışa geri çəkilirdi...

Soltanlı işğaldan azad edildi.

Oktyabrın 19-u idi...

**Rəşid HÜSEYNOV**
**əməkdar jurnalist**

# Maştağa qəsəbəsində Vətən müharibəsi şəhidi Əliağa Məmmədovun xatirəsi anılıb





*Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalan igid oğullarımızdan biri də Azərbaycan Ordusunun əsgəri Əliağa Məmmədovdur. Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunmuş Əliağa Məmmədovun bu gün doğum günüdür.*

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar iyulun 26-da şəhidin yaşadığı Maştağa qəsəbəsindəki evində anım tədbiri keçirilib. Mərasimdə cəsur döyüşçünün hərbçi və iş yoldaşları, rayon icra hakimiyyətinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Mərasimdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbir iştirakçıları şəhidlə bağlı xatirələrini bölüşüb, keçdiyi şərəfli döyüş yolundan, göstərdiyi şücaətdən danışıblar. Bildirilib ki, 44 günlük Vətən müharibəsində döyüş yoldaşlarının həyatını qurtarmaq üçün özünü sipər edərək qəhrəmancasına şəhidlik zirvəsinə ucalan Əliağa Məmmədov silahdaşlarının deyil, komandirinin də həyatını xilas edib.

Qeyd edək ki, Əliağa Məmmədov 2001-ci il iyulun 26-da Sabunçu rayonunda anadan olub. 2008-2013-cü illərdə Sabunçu rayonundakı 80 nömrəli, 2013-2017-ci illərdə isə 322 nömrəli tam orta məktəblərdə təhsil alıb. 2017-2018-ci illərdə 5 nömrəli Peşə liseyində "İşıq operatoru" ixtisası üzrə təhsil alıb. O, altı il cüdo ilə məşğul olub.

Əliağa Məmmədov 2019-cu ildə Azərbaycan Ordusunun sıralarında müddətli həqiqi hərbi xidmətə başlayıb. Azərbaycan Ordusunun əsgəri olan Əliağa 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 6-da Ağdərə uğrunda döyüşlərdə şəhid olub. Əliağa Məmmədov Maştağa qəsəbəsində dəfn olunub.

*Hərbi texnikalar, silahlar*

## Tank əleyhinə "Kornet-EM" raket kompleksi



Rusiyanın Akademik A.Q.Şipunov adına cihazqayırma konstruktor bürosunda istehsal olunan tank əleyhinə "Kornet-EM" raket kompleksi çoxməqsədli, uzaq məsafəli raket kompleksidir. Tank əleyhinə raket kompleksindən dinamik müdafiə sistemi ilə təchiz edilmiş müasir tanklara, müxtəlif yüngül zirehli texnikalara, fortifikasiya qurğularına, suüstü, aşağı sürətli hava hədəflərinə (helikopterlərə, hücum aviasiyasının zərbə təyyarələrinə) qarşı mübarizə aparmaq mümkündür. Üçüncü nəsildən olan "Kornet-EM" kompleksi günün müxtəlif vaxtlarında və müxtəlif iqlim şəraitində radioelektron və optik maneələrin qarşısını almağa qadirdir. Bu raket kompleksi bir metr qalınlığında zirehli poladı deşə bilir. Verilən məlumata görə, "Kornet" nəslindən olan tank əleyhinə raket kompleksləri çox davamlı və effektli sayılırlar. Hazırda bu maşınları uzaq məsafəli, çoxməqsədli və yüksək dəqiqlikli raket kompleksi adlandırırlar. "Kornet-EM" kompleksinin əsas prinsiplərindən biri onun avtomatik rejimdə atəş açmasıdır. Onun döyüş dəsti 16 raketdən ibarətdir. Raketlər iki avtomatlaşdırılmış qurğuda yerləşir. Onlardan səkkizi tam atəş açmağa hazır vəziyyətdə olur. Kompleksin idarəetmə sistemi də tam avtomatlaşdırılıb. "Kornet-EM" kompleksinin minimal atəş uzaqlığı 150 metr, maksimal atəş uzaqlığı isə 10000 metrə qədərdir. Eyni vaxtda iki hədəfə qarşı atəş aça bilir. Kompleks 7 saniyə ərzində yürüş vəziyyətindən döyüş vəziyyətinə gətirilir. "Kornet-EM" raket kompleksinin fuqas raketləri ilə atəş uzaqlığı 10 km, kumulyativ raketlərlə isə 8 kilometrdir. Atəş tezliyi dəqiqədə 2-3 atışdır. Yeddi kiloqramlıq trotil ekvivalentli kumulyativ döyüş hissəsi 1300 mm-lik zirehi deşə bilir. Sifariş əsasında onun bir və ya iki avtomatlaşdırılmış buraxıcı qurğusu yerli və xarici istehsallı şassidə quraşdırıla bilər. "Kornet-EM" kompleksinin tərkibinə iki avtomat buraxıcı qurğu, operator pultu, həmçinin müxtəlif növlü döyüş hissəsi olan idarəolunan raketlərlə birlikdə döyüş maşını da daxildir. Kompleksin əsas xüsusiyyətlərindən biri odur ki, raketlər avtomobilin gövdəsində yerləşdirilib. Kompleksin tərkibinə tank əleyhinə idarəolunan raket (uçuş uzaqlığı 8 km), üzərində buraxılmağa hazır vəziyyətdə olan dörd ədəd idarəolunan raketlə birlikdə avtomat buraxıcı qurğu, raketlərin tuşlanması üçün lazerli kanal, lazerli uzaqlıqölçən, nişangahlar və s. cihazlar daxildir. "Kornet-EM" kompleksində müxtəlif döyüş hissələrindən də istifadə edilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

*Ovqat*

## Hərbi marşların tarixdən gələn səsləri

Döyüş zamanı musiqi ilə silah qoşa qanad kimi birləşəndə düşmən daha asan məhv edilir, uğur daha tez qazanılır. Qəlbləri riqqətə gətirən marş sədaları yağı üzərinə gedən əsgərləri uğura çatdırır, zəfərlərə qovuşdurur. Musiqi sədalarından güc alan döyüşçülər doğma yurdunu azad edərək həmişə xalqına qələbə sevinci yaşadır.

Vurğunu olduğumuz marş və hərbi mahnılar zaman-zaman bizi mübarizəyə səsləyib, zirvələri fəth etməyə ruhlandırıb, düşmən üzərində qələbə qazanmağa həvəsləndirib. Hərbi marş və mahnılar qəlbimizə, ürəyimizə açılan sirli-sehirli qapıya bənzəyir. Musiqinin insana güc verməsi, damarlarında axan qanını coşdurub düşmən üzərinə aparması, qələbəyə ruhlandırması dünənin, srağagünün söhbəti deyil. Şərəf dolu keçmişimizə boylananda görürük ki, ötən əsrlərdə müharibənin yazılmış və yazılmamış qanunlarına bələd olan böyük sərkərdələr əsgərlərini düşmən üzərinə, döyüşlərə hərbi marş və vətənpərvərlik mahnılarının sədaları altında aparıblar. Əgər bu hərbi marş və mahnılar daim döyüşçülərin qanlarını coşdurub qəlblərini riqqətə gətirməsəydi, heç babalarımız da onları yaratmazdılar. Sərkərdələr qanlı savaşlardan əvvəl döyüşçülərinə güc verən musiqiləri səsləndirərdilər.

Tarixin həqiqət adlandırdığımız aynası göstərir ki, ərənlərimiz əsrlərcə əvvəl hərbi marş və mahnıların gücünü, onun əsgərə ruh verib qələbəyə təşnələndirən ritmini çox gözəl duyublar, onun qüdrətini, məğlubedilməzliyini dərindən hiss ediblər. Musiqi ritmlərində gizlənən gücün sirrini, incəliklərini aşkarlayıb, onun möcüzəli qapısına möcüzəli də bir açar tapıblar.

Tarixin səhifələrini vərəqləyəndə öyrənirik ki, hələ eramızdan əvvəllər də savaşlarda əsgərləri qələbəyə, zəfərə həvəsləndirib onların döyüş ruhunu yüksəltmək məqsədilə hərbi marş və mahnılar çalınardı. Deməli, əsgərin döyüş əzmini artıran hərbi marş və mahnıların tarixi qədimdən qədimdi. Bu marş və mahnılar savaşdan öncə ona görə çalınardı ki, ruh yüksəkliyi yaransın, əsgərlər cuşa gəlib, qələbə qazanmaq ovqatına köklənsinlər.

Əsrlərin o üzündən başlanan tarixi ənənə ordumuzda uğurla davam etməkdədir. Bu gün hərbi hissə və birləşmələrdə keçirilən təlimməşqləri yaxından izlədikcə, əsgərlərin oxuduqları marş və mahnıları dinlədikcə qəlbimiz riqqətə gəlir. Dəfələrlə şahidi olmuşam ki, mahnı və marşları dinləyən zabitlərin, əsgərlərin baxışından cəsarət və rəşadət yağır. Bu anlarda onlar özlərini həm fiziki, həm də mənəvi cəhətdən güclü və yenilməz hiss edirlər. Musiqinin, hərbi marşların gücü, insan qəlbindəki qüdrət və təntənəsi bax budur! Musiqi döyüşçülərə güc verərək onları uğurlara səsləyir, düşmən üzərinə cəsarətlə şığımağa həvəsləndirir. Bu gücü düzgün istiqamətə yönəldəndə isə üzümüzə yalnız zəfər gülümsəyir, qələbə sevincinin gözəl anlarını yaşayırıq.

Əvvəlki çağlar hərbi hissə və birləşmələrdə bütün tədbir və mərasimlərdə Qarabağın azadlığı uğrunda olacaq döyüşlərdən əvvəl bizi qələbəyə ruhlandıran marş və mahnılar çalınırdı. İnanırdıq ki, silahla birləşib qoşalaşan hərbi marşlar və mahnılar sonda mütləq bizi tarixlərə səs salacaq qələbələrə, zəfərlərə qovuşduracaq.

Doğrudan da, illər uzunu qəlbləri riqqətə gətirən hərbi marş və mahnıları dinləyən hərbçilərimiz 44 gün davam edən Vətən müharibəsində böyük qəhrəmanlıqlar göstərdilər. Döyüşlər zamanı erməni qəsbkarlarına sarsıdıcı zərbələr vuraraq uzun illər işğalda qalmış torpaqlarımızı azad etdilər. Azərbaycan xalqına böyük qələbə sevinci yaşatdılar.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**


| Baş redaktor vəzifəsini icra edən | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Bəxtiyar ƏLİYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 383 Nüsxə 3959 |